

# Qobustanın mədəni irsi

***Bəşəriyyət tarixinin öyrənilməsində qayaüstü təsvirlər olduqca maraqlı və qiymətli bir mənbədir. Onlar Yer kürəsinin bütün qitələrində aşkar edilib və ümumilikdə zəngin və dərin mənalı geniş "şəkil qalereyası"nı xatırladır. İbtidai insanların həyatının və məişətinin müxtəlif tərəflərini ustalıqla əks etdirən qədim rəssamların bu incəsənət əsərləri əsrlər boyunca toplanıb. Məhz buna görə də bu təsvirlər ibtidai incəsənəti öyrənməklə məşğul olan alim və mütəxəssislərin diqqətini hər zaman özünə cəlb etmişdir.***

Ərazisi minlərlə petroqliflərlə zəngin olan Qobustan dünya mədəni irsinin qiymətli abidələrindən biridir. Qobustanın Böyükdaş, Kiçikdaş və Cingirdağ dağlarında yerləşən bu abidələrin unikal arxeoloji və tarixi mahiyyəti, buranın landşaftının təbii gözəlliyi onların elmi və estetik əhəmiyyətini müəyyən edir. Petroqliflər bu regionun əsas tarixi mənbələrindən biridirlər. Qayaüstü təsvirlər üst paleolit və bütün sonrakı dövrləri əhatə edir.

Qobustan - bir tərəfdən landşaftın ritual məkana, digər tərəfdən isə uzun müddət saxlanılan və əcdadlarımızın möhkəm ənənələrini yaradan daimi yaşayış məkanına çevrilməsinin parlaq nümunəsidir. Bu ənənələr landşafta çəkilmiş işarələrdə və adət-ənənələrdə əks etdirilib.

Qobustan abidələrinin qorunmasının, konservasiyasının və dünya miqyasında təbliğ olunması perspektivlərinin bir çox məsələləri sənədləşdirmə tələb edir. Obyektin vəziyyətinin qeyd edilməsi yalnız yoxlama vaxtı deyil, eləcə də sonrakı dəyişikliklərin qeydiyyatı zamanı qarşımıza çıxan məsələlərdən biridir.

"Petroqliflərin yerlərinin sənədləşdirilməsi strukturu" ilk dəfə 2001-ci ildə Çolpaq-Ata şəhərində (Qırğızıstan) keçirilən "Mərkəzi Asiyanın petroqlifləri" adlı beynəlxalq elmi seminarda A.E.Roqojinski tərəfindən təqdim edilmişdir. 2002-ci ildə norveçli həmkarlarımız, A.S.Xiqenin rəhbərliyi altında Tamqalı petroqliflərinin vəziyyətinin, konservasiya işlərinin və monitorinqin sənədləşdirilməsi formalarının hazırlanması nəticəsində bu sistem böyük nailiyyətlər qazanmışdır.

Qobustanın maddi-mədəni irsinin tədqiqi və qorunması məqsədi ilə maddi-texniki baza əsasında yeni metodları əks etdirən məlumatlar bazası tərtib etmişik.

Petroqliflərin yerləşdirilməsinin sənədləşdirilməsinə aşağıdakı növlər daxildir:

1) kompleksin arxeoloji xəritəsi,

2) petroqliflərin yerləşdiyi sahələrin topoqrafik planı,

3) petroqliflərin yerləşdiyi sahələrin indeksləşmiş foto və qrafik panoraması,

4) petroqliflərin yerləşdiyi sahələrin indeksləşmiş foto (ortoqonal proyeksiyada) və qrafik təsvirləri,

5) petroqliflərin və səthin vəziyyətini xarakterizə edən standartlaşmış izah.

Məhz bu materialların əsasında qayaüstü incəsənət abidələrinin tədqiqi, qorunması və istifadəsi məsələləri həll olunur.

GPS-in vasitəsi ilə MAP-info proqramında bizim tərəfdən qoruğun xəritəsi və onun üzərində qeydə alınmış qayaüstü təsvirlər tərtib edilmişdir. 417 daşın fotofiksasiyası aparılmış, 417 koordinat qeydə alınmışdır.

Beləliklə, özündə bir çox parametrləri birləşdirən vahid sənədləşdirmə kompleksi Azərbaycan abidələrinin elmi təhlilini, konservasiyası, monitorinqi, qorunması və istifadəsini keyfiyyətcə yeni səviyyələrə qaldırır.

Qayaüstü incəsənət ümumbəşəri fenomendir. Qayaüstü incəsənət abidələrinin təbii aşınmalara, dağıntılara məruz qalması qlobal hadisədir. Yalnız birgə əməkdaşlıq və məlumatların, metod, bilik və təcrübələrin mübadiləsi yolu ilə gələcəkdə səmərəli nəticələr əldə edə bilərik.

**Məlahət Fərəcova**